**Fəxrəddin Bayram oğlu Babazadə**
**AMEA İqtisadiyyat İnstitutu**
**“Xidmət sferasının iqtisadiyyatı” şöbəsi**
**UOT:338.46; 338.48; JEL: L83; L90.**

# Mehmanxana fəaliyyətinə biznes mühiti sub-indeksinin təsirinin qiymətləndirilməsi

***Xülasə***

*İnvestisiya və biznes mühitinin dəqiq bir tərifi yoxdur. Dünya Bankı firmalara məhsuldar şəkildə investisiya qoyulması, iş yerlərinin açılması və genişləndirilməsi baxımından investisiya və biznes mühitini müəyyənləşdirmək üçün bəzi göstəricilər hazırlamışlar. Bu vasitəni Dünya bankı investisiya və biznes mühiti baxımından istənilən ölkədə fəaliyyət göstərən xarici və yerli şirkətlər üçün biznes qurmağa və qazanc əldə etməyə imkan verən ən səmərəli sistem kimi təqdim edir. İnvestisiya mühiti üç geniş dəyişən ilə ölçülə bilər:makroiqtisadi vəziyyəti müəyyən edən vergi, pul və ticarət siyasəti; qurumların mövcudluğu və idarəetmə keyfiyyəti; infrastrukturun inkişaf səviyyəsinin ölçülməsi.İnvestisiya və biznes mühiti sadəcə müəssisələrə tətbiq edilən vergi dərəcələri və vergi güzəştlərindən asılı deyil. Buna ciddi təsir edən digər vacib amillər arasında makroiqtisadi şərtlər, siyasi sabitlik, hökumətə etimad, qanunun aliliyi və tənzimləmə mühiti var. Hökumətlər birbaşa xarici sərmayələri dəvət etdikdə, çox vaxt iş mühitinin vacibliyini nəzərə almırlar. Daha çox bazarın həcminə, təbii ehtiyatların mövcudluğuna və gözlənilən xərclərə diqqət yetirirlər. Bütün bu amillər vacib olsa da, investisiya mühiti zəruri amildir və bu amil heç vaxt az qiymətləndirilməməlidir.*
***Açar sözlər:*** mehmanxana, biznes mühiti, sub-indeks, tikinti, işə başlamaq.

## Giriş

Sahibkarlığın inkişafı üçün rəqabət qabiliyyətliliyin davamlı artırılması istiqamətində investisiya və biznes mühitinin əlverişliyinin artırılması, dövlət tənzimləməsinin təkmilləşdirilməsi, inkişaf etmiş beynəlxalq təcrübəyə uyğun cəlbedici investisya və biznes mühitinin uyğunlaşdırılması, davamlı hüquqi baza və tənzimləmə sisteminə malik olmağı zəruri edir. Gözlənilən hədəfə çatmaq üçün dövlət tərəfindən ardıcıl olaraq investisya və biznes mühitinin yaxşılaşdırılması, sahibkar - dövlət münasibətlərinin qarşılıqlı şəkildə inkişaf etdirilməsi, dövlət tənzimləməsinin, həmçinin inzibati prosedur və qaydaların təkmilləşdirilməsi, sahibkarlara təşviq mexanizmlərinin və dövlət dəstəyinin artırılması, sahibkarlıq fəaliyyətinə süni maneələrin və qanunsuz müdaxilələrin aradan qaldırılması, beynəlxalq standartlara uyğunlaşdırılmış elektron dövlət xidmətlərinin göstərilməsi, ixrac imkanlarının və rəqabətqabiliyyətliyin genişləndirilməsi sahələrində dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilməlidir. Tədqiqatın məqsədi – ölkələrin mehmanxana fəaliyyətinin biznes mühiti sub-indeksi üzrə reytinqində inkişafının qiymətləndirilməsindən ibarətdir.

## Metodologiya

Biznes mühiti sub-indeksi 4 alt göstərici üzrə hesablanmışdır: Tikinti üçün sahibkar tərəfindən sərf olunan vaxt, Tikinti icazələri üçün sahibkar tərəfindən çəkilən xərc, İşə başlamaq üçün sərf olunan vaxt, İşə başlamaq üçün çəkilən xərc. Bu göstəricilər Dünya Bankının “Doing Business” hesabatından götürülmüşdür. Sub-indeksin hesablanması 4 göstəricinin indeksləşdirilmiş halının sadə ədədi ortası kimi hesablanmışdır.

$$BM(s)i = \frac{TSV_i + TSX_i + İBV_i + İBX_i}{4}$$

İşə başlamaq üçün sahibkar tərəfindən sərf olunan vaxt

Bu göstəricidə praktiki sahibkarın tikinti üçün sərf etdiyi zaman (gün ilə) nəzərdə tutulur. Bu göstərici mehmanxananın təşkil edilməsində ixtisaslaşmış notariusların və ya hüquqşünasların dövlət orqanlarında qeyri-rəsmi ödənişlər olmamaq şərti ilə və minimum əlavə icra prosedurlarını başa

çatdırmaq üçün sahibkarların praktikada məcburi hesab etdikləri orta müddəti əhatə edir. Bir prosedur üçün tələb edilən minimum vaxt bir gün kimi qəbul edilmişdir. Lakin onlayn müraciətlə yerinə yetirilə bilən prosedurlar üçün minimum vaxt yarım gün qeyd olunmuşdur. Prosedurlar eyni vaxt ərzində icra edilə bilər, lakin eyni gün ərzində başlamaq olmaz. Yəni eyni vaxt ərzində icra edilə bilən prosedurlar ayrı-ayrı günlərdə başladılır. Mehmanxana rəsmi şəkildə sahibkarlıq fəaliyyətinə başlanmasına razılıq sənədinin alınmasından sonra qeydiyyat prosesi bitmiş hesab olunur. Əgər prosedur əlavə ödənişlər edilərək qanuni yolla tez zamanda başa çatdırıla bilərsə, bu prosedurlar içində ən sürətlisi seçilir və bu şərtlə ki daha tez yerinə yetrilən prosedur ölkənin göstəricidə mövqeyinin yaxşılaşdırılmasına imkan versin.

$$\mathrm{TSV_i} = \frac{x_i - x_{min}}{x_{max} - x_{min}}$$

İşə başlamaq üçün sahibkar tərəfindən çəkilən xərc

Bu göstərici ölkədə adambaşına düşən gəlirə işə başlamaq üçün sahibkar tərəfindən çəkilmiş xərcin faiz nisbəti kimi hesablanmışdır. Xərclər, prosedurları həyata keçirərkən məcburi tətbiq edildiyi halda və ya qanunla tələb edildiyi təqdirdə rəsmi rüsumları, habelə peşəkar və ya hüquqi xidmətlər üçün ödənişləri özündə əks etdirir. Qanunla tələb edilən prosedurlar olduğu halda, mehmanxananın mühasibat dəftərlərinin leqallaşdırılması və satınalınması üçün ödənişlər də xərc kimi nəzərədə tutulur. Xərclərin hesablanmasında kommersiya məcəlləsindən, şirkətlər haqqında hüquqi qanunvericilikdən, habelə ölkələrin xidmət qiymətlərindən mənbə kimi istifadə edilmişdir. Bəzi ölkələrdə xidmət tarifləri olmadıqda isə, həmin ölkələrin dövlət qurumlarının statistik hesablamalarını mənbə kimi istinad edilmişdir. Elə ölkələrdə vardır ki, orada dövlət qurumlarınında hesablamaları yoxdur. Bu halda isə həmin ölkədə müəssisələrin qeydiyyat aparılması ilə məşğul olan peşəkar ekspertlərin müəyyənləşdirdiyi hesablamalarından istifadə olunmuşdur.

$$\mathrm{İBX_i} = \frac{\mathrm{İBX}}{100}$$

Tikintiyə icazələrinin verilməsi üçün sərf olunan vaxt

Bu göstəricidə praktiki sahibkarın tikinti üçün sərf etdiyi zaman (gün ilə) nəzərdə tutulur. Bu göstərici tikintiyə icazənin alınmasında peşəkar yerli ekspertlərin dövlət orqanlarında qeyri-rəsmi ödənişlər olmamaq şərti ilə və minimum əlavə icra prosedurlarını başa çatdırmaq üçün sahibkarların praktikada məcburi hesab etdikləri orta müddəti əhatə edir. Bir prosedur üçün tələb edilən minimum vaxt bir gün kimi qəbul edilmişdir. Lakin onlayn müraciətlə yerinə yetirilə bilən prosedurlar üçün minimum vaxt yarım gün qeyd olunmuşdur. Prosedurlar eyni vaxt ərzində icra edilə bilər, lakin eyni gün ərzində başlamaq olmaz. Yəni eyni vaxt ərzində icra edilə bilən prosedurlar ayrı-ayrı günlərdə başladılır. Əgər prosedur əlavə ödənişlər edilərək qanuni yolla tez zamanda başa çatdırıla bilərsə, bu prosedurlar içində ən sürətlisi seçilir və bu şərtlə ki daha tez yerinə yetrilən prosedur ölkənin göstəricidə mövqeyinin yaxşılaşdırılmasına imkan versin.

$$\mathrm{IBV_i} = \frac{z_i - z_{min}}{z_{max} - z_{min}}$$

Tikinti icazələrinin verilməsi üçün çəkilən xərc

Bu göstəricidə ölkələr üzrə mehmanxananın tikintisinə dövlət tərəfindən məcburi şəkildə qoyulmuş prosedurlara çəkilən xərcin mehmanxananın ümumi dəyərinə olan faizi nisbəti kimi hesablanmışdır. Mehmanxanın qanuni tikilməsi üçün dövlət tərəfindən qoyulan prosedurların başa çatmasına çəkilən xərclər, həmçinin torpaq istifadəsinə görə prosedurlara çəkilən xərclər, əvvəlcədən hazırlanmış binanın plan sənədləri ilə əlaqədar sənədləşməyə çəkilən xərclər, tikintidən əvvəl, tikinti zamanı və tikindidən sonra yoxlama prosedurlarına çəkilən xərclər, binanın kommunalla təhciz

edilməsinə çəkilən xərc və əmlak reyestrində binanın qeydiyyatına çəkilən xərclər daxildir. Buraya mehmanxana layihəsini başa çatdırmaq üçün tələb olunan vergilər də daxil edilmişdir. Göstəricilər yerli mütəxəssislərin məlumatları və dövlət qurumlarından götürülmüş ödəniş cədvəlləri əsasında hesablanmışdır. Bir neçə yerli mütəxəssis ayrı-ayrı qiymətlər təqdim edərsə onların medianı tapılaraq istifadə olunur.

$$\text{TİX}_i = \frac{\text{TİX}}{100}$$

**Tədqiqatın nəticələri və onların müzakirəsi**

Rəqabətə davamlı gəlir əldə etmək üçün investorlar üç əsas maneədən qaçmağa çalışır: risk, xərclər və gecikmələr. Cərimələr, rüsumlar, vergilər, korrupsiya kimi hallar artarsa investisiya mühiti qeyri-qənaətbəxş hal nəticəsində biznes əməliyyatlarının dəyəri artır. Bu səbəbdən investor digər variantları nəzərdən keçirə bilər. Bunlara enerji, əmək və nəqliyyat xərclərini azaltmağı misal göstərmək olar. Eyni zamanda, sistemdəki əngəllər mənfəət əldə etmə prosesini əhəmiyyətli dərəcədə ləngidirsə, investorlar rəqabətədavamlılıq xərclərinə baxmayaraq başqa bir yerə investisiya qoymağın yollarını axtara bilərlər. Nəhayət, ilkin xərclər və gecikmələr olmasa belə, investor siyasi iğtişaşlar, əmlakın müsadirə edilməsi və ya qazanclara mənfi təsir göstərə biləcək qanunvericilikdəki dəyişikliklərdən narahatdırsa, risk ehtimalını minimuma endirmək üçün başqa bir ölkədə daha az cəlbedici biznes mühtini seçə bilər.

**Cədvəl 1.**

**Ölkələr üzrə mehmanxanaların işə başlamaq üçün sərf etdikləri vaxt və xərc göstəriciləri**

| Ölkələr | 2014 | | 2015 | | 2016 | | 2017 | | 2018 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | vaxt | xərc | vaxt | xərc | vaxt | xərc | vaxt | xərc | vaxt | xərc |
| 1. Kanada | 5,5 | 0,4 | 5,5 | 0,4 | 1,5 | 0,4 | 1,5 | 0,4 | 1,5 | 0,4 |
| 2. Gürcüstan | 2,0 | 3,8 | 2,0 | 3,7 | 2,0 | 3,4 | 2,0 | 2,6 | 2,0 | 2,5 |
| 3. Sinqapur | 2,5 | 0,6 | 2,5 | 0,6 | 2,5 | 0,6 | 2,5 | 0,6 | 2,5 | 0,5 |
| 4. Avstraliya | 2,5 | 0,7 | 2,5 | 0,7 | 2,5 | 0,7 | 2,5 | 0,7 | 2,5 | 0,7 |
| 5. Fransa | 6,5 | 0,9 | 4,5 | 0,9 | 4,0 | 0,8 | 3,5 | 0,7 | 3,5 | 0,7 |
| 6. Azərbaycan | 7,0 | 1,0 | 5,5 | 3,1 | 3,5 | 1,7 | 3,5 | 1,9 | 3,5 | 1,6 |
| 7. Böyük Britaniya | 11,5 | 0,3 | 6,0 | 0,3 | 4,5 | 0,1 | 4,5 | 0,1 | 4,5 | 0 |
| 8. Latviya | 12,5 | 0 | 5,5 | 0 | 5,5 | 0 | 5,5 | 0 | 5,5 | 0 |
| 9. Litva | 5,5 | 6,4 | 5,5 | 21,2 | 5,5 | 20,3 | 5,5 | 19,3 | 5,5 | 17,5 |
| 10. ABŞ | 6,2 | 1,2 | 5,6 | 1,2 | 5,6 | 1,1 | 5,6 | 1,1 | 5,6 | 1,1 |
| 11. İtaliya | 7,5 | 14,7 | 6,5 | 14,8 | 6,0 | 14,4 | 6,0 | 14,3 | 6,0 | 14,1 |
| 12. Almaniya | 14,5 | 5,0 | 14,5 | 8,9 | 10,5 | 7,0 | 8,0 | 6,8 | 8,0 | 7 |
| 13. Meksika | 8,4 | 18,6 | 8,4 | 18,8 | 8,4 | 18,1 | 8,4 | 17,8 | 8,4 | 17,0 |
| 14. Qazaxıstan | 18,0 | 0,6 | 16 | 0,5 | 11,0 | 0,5 | 9,0 | 0,3 | 9,0 | 0,3 |
| 15. Türkiyə | 10,5 | 19,3 | 11,0 | 22,5 | 11,0 | 22,2 | 10,0 | 21,8 | 10,0 | 15,9 |
| 16. Rusiya | 13,2 | 1,5 | 11,5 | 1,4 | 10,8 | 1,4 | 10,1 | 1,2 | 10,1 | 1,1 |
| 17. Yaponiya | 11,7 | 7,5 | 11,2 | 7,5 | 11,2 | 7,5 | 11,2 | 7,5 | 11,2 | 7,5 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **18. Yunanıstan** | 13,0 | 0 | 13,0 | 0 | 13,0 | 0 | 12,5 | 0 | 12,5 | 0 |
| **19. İspaniya** | 24,0 | 5,0 | 14,0 | 4,5 | 14,0 | 4,4 | 13,0 | 4,3 | 13,0 | 4,1 |
| **20. Misir** | 12,5 | 22,7 | 12,5 | 22,2 | 16,5 | 19,8 | 16,5 | 19,6 | 16,5 | 19,4 |
| **21. Çin** | 32,4 | 1,9 | 29,4 | 0,9 | 29,4 | 0,7 | 26,9 | 0,7 | 22,9 | 0,6 |

Mənbə: The Travel and Tourism Compotitivness İndex 2015-2019
http://reports.weforum.org/travel-and-tourism-competitiveness-report-2019/rankings/#series=STARTBUSDAYS
http://reports.weforum.org/travelandtourismcompetitivenessreport2019/rankings/#series=STARTBUSCOST

Ölkələr üzrə 2018-ci ildə sahibkarlar işə başlayarkən ən çox vaxt sərf etdikləri ölkələrin ilk beşliyinə Çin (22,9), Misir (16,5), İspaniya (13,0), Yunanıstan (12,5) və Yaponiya (11,2) daxildir. Bu göstərici üzrə sahibkarların işə başlayarkən ən az vaxt sərf etdikləri ölkələrə isə Kanada (1,5), Gürcüstan (2,0), Avstraliya (2,5), Sinqapur (2,5) və Azərbaycan (3,5) daxildir. Sahibkarların Azərbaycanda işə başlamaq üçün sərf etdikləri vaxt göstəricisinə görə 3,5 günlə Böyük Britaniya (4,5), ABŞ (5,6), İtaliya (6,0), Almaniya (8,0), Yaponiya (11,2) və Çin (22,9) kimi (adambaşına hesablanan ÜDM-i 35 min dollardan daha çox olan) İEÖ-dən, həmçinin Litva (5,5), Latviya (5,5) kimi İEOÖ-ə nisbətdə daha az zaman sərf edilərək ilk beşlikdə (5-ci yerdə) yerləşmişdir. Sahibkarların işə başlaması üçün bu vaxt çərçivəsində sərf etdikləri maliyyə xərclərinin çoxluğuna görə isə ölkələrin ilk beşliyində Misir (19,4), Litva (17,5), Meksika (17,0), Türkiyə (15,9) və İtaliya (14,1) yer alır. Sahibkarların işə başlamasını asanlaşdırmaq məqsədi ilə Yunanıstan, Latviya və Böyük Britaniya bu prosedurları həyata keçirərkən bu xərcləmələrdən azad etmişdir. Sahibkarların maliyyə xərcləri baxımdan işə başlaması daha asan olan ölkələrə Qazaxıstan (0,3) və Kanadanı (0,4) misal göstərmək olar. Sahibkarların Azərbaycanda bu vaxt çərçivəsində çəkilən xərc göstəricisinə görə 1,6 faizlə İspaniya (4,1%), Almaniya (7,0 %), Yaponiya (7,5 %) və İtaliya (14,1 %) kimi (adambaşına hesablanan ÜDM-i 35 min dollardan daha çox) İEÖ-dən, həmçinin Türkiyə (15,9), Misir (19,4) kimi İEOÖ-ə nisbətdə daha az xərc sərf edilərək ikinci onluqda (12-ci yerdə) yerləşmişdir.

**Cədvəl 2.**

**Ölkələr üzrə mehmanxanaların tikinti icazələri üçün sərf etdikləri vaxt və xərc göstəriciləri**

| Ölkələr | 2014 | | 2015 | | 2016 | | 2017 | | 2018 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | vaxt | xərc | vaxt | xərc | vaxt | xərc | vaxt | xərc | vaxt | xərc |
| **1. ABŞ** | 78,6 | 1 | 80,6 | 1 | 80,6 | 1 | 80,6 | 0,9 | 80,6 | 0,8 |
| **2. Almaniya** | 96 | 1,1 | 96 | 1,1 | 96 | 1,1 | 126 | 1,2 | 126 | 1,2 |
| **3. Avstraliya** | 112 | 0,5 | 112 | 0,5 | 112 | 0,5 | 121 | 0,9 | 121 | 0,7 |
| **4. Azərbaycan** | 151 | 4,1 | 203 | 4,1 | 203 | 4,5 | 242 | 6,8 | 116 | 1,9 |
| **5. Böyük Britaniya** | 105 | 1,2 | 105 | 1,1 | 86 | 1,1 | 86 | 1 | 86 | 1,1 |
| **6. Çin** | 244,3 | 7,6 | 244,3 | 7,2 | 244,3 | 7 | 247,1 | 7,8 | 155,1 | 2,9 |
| **7. Fransa** | 183 | 4,7 | 183 | 4,7 | 183 | 3 | 183 | 3 | 183 | 3 |
| **8. Gürcüstan** | 68,5 | 0,3 | 48 | 0,2 | 48 | 0,2 | 63 | 0,3 | 63 | 0,3 |
| **9. İspaniya** | 229 | 5,2 | 205 | 5,2 | 205 | 5,2 | 208 | 5,4 | 147 | 4,8 |
| **10. İtaliya** | 233 | 3,7 | 227,5 | 3,6 | 227,5 | 3,5 | 227,5 | 3,6 | 227,5 | 3,5 |
| **11. Kanada** | 249 | 1,3 | 249 | 1,3 | 249 | 1,3 | 249 | 1,9 | 249 | 1,8 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **12. Qazaxıstan** | 156 | 1,5 | 154 | 1,4 | 68 | 1,3 | 123 | 1,9 | 101,5 | 2 |
| **13. Latviya** | 149 | 0,3 | 165 | 0,3 | 147 | 0,3 | 192 | 0,5 | 192 | 0,5 |
| **14. Litva** | 91 | 0,3 | 103 | 0,3 | 103 | 0,3 | 75 | 0,3 | 74 | 0,3 |
| **15. Meksika** | 87,6 | 10,3 | 86,4 | 10,2 | 86,4 | 9,8 | 82,3 | 9,9 | 82,1 | 9,7 |
| **16. Misir** | 179 | 1,9 | 179 | 1,7 | 145 | 1,6 | 172 | 1,9 | 173 | 1,6 |
| **17. Rusiya** | 238,4 | 1,9 | 263,5 | 1,6 | 239,3 | 1,4 | 239,4 | 1,3 | 193,8 | 1,2 |
| **18. Sinqapur** | 26 | 0,3 | 26 | 0,3 | 48 | 6,1 | 54 | 6,2 | 41 | 3,4 |
| **19. Türkiyə** | 169 | 3,5 | 103 | 3,6 | 103 | 3,5 | 103 | 4 | 103 | 3,9 |
| **20. Yaponiya** | 197 | 0,6 | 197 | 0,6 | 197 | 0,5 | 197 | 0,5 | 175 | 0,5 |
| **21. Yunanıstan** | 124 | 0,6 | 124 | 1,8 | 124 | 1,8 | 124 | 2 | 123 | 1,9 |

Mənbə: The Travel and Tourism Compotitivness İndex 2015-2019
http://reports.weforum.org/travelandtourismcompetitivenessreport2019/rankings/#series=CONSTPERMDAYS
http://reports.weforum.org/travelandtourismcompetitivenessreport2019/rankings/#series=CONSTPERMCOST

Ölkələr üzrə 2018-ci ildə sahibkarlar tikinti icazələri üçün ən çox vaxt sərf etdikləri ölkələrin ilk beşliyinə Kanada (249), İtaliya (227,5), Rusiya (193,8), Latviya (192) və Fransa (183) daxildir. Bu göstərici üzrə sahibkarların tikinti icazələri üçün ən az vaxt sərf etdikləri ölkələrə isə Sinqapur (41), Gürcüstan (63), Litva (74), ABŞ (80,6) və Meksika (82,1) daxildir. Sahibkarların Azərbaycanda tikinti icazələri üçün sərf etdikləri vaxt göstəricisinə görə 116 günlə Yaponiya (175), Çin (155,1), İspaniya (147), Almaniya (126) və Avstraliya (121) kimi şəhər infrastrukturu İEÖ-dən, həmçinin Misir (173), Yunanıstan (123) kimi İEOÖ-ə nisbətdə daha az zaman sərf edilərək birinci onluqda (9-cu yerdə) yerləşir. Sahibkarların tikinti icazələri üçün bu vaxt çərçivəsində sərf etdikləri maliyyə xərclərinin çoxluğuna görə ölkələrin ilk beşliyində Meksika (9,7%), İspaniya (4,8%), Türkiyə (3,9%), İtaliya (3,5%) və Sinqapur (3,4%) yer alır. Bu göstəriciyə görə tikinti icazələri üçün bu vaxt çərçivəsində sərf etdikləri maliyyə xərclərinin azlığına görə isə ölkələrin ilk beşliyinə Litva (0,3%), Gürcüstan (0,3%), Latviya (0,5%), Yaponiya (0,5%) və Avstraliya (0,7%) yer alır. Azərbaycan Yunanıstanla birlikdə sahibkarların tikinti icazəsinə sərf olunan vaxt çərçivəsində çəkilən xərcləmələrə görə 1,9 faizlə Çin (2,9%), Fransa (3%) kimi (adambaşına hesablanan ÜDM-i 35 min dollardan daha çox olan) İEÖ-dən, həmçinin Qazaxıstan (2%) kimi İEOÖ-ə nisbətdə daha az xərc sərf edilərək ikinci onluqda (12-ci yerdə) yerləşmişdir.

**Cədvəl 3.**

**Hüquqi baza sub-indeksi üzrə ümumi nəticələr**

| Ölkələr | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| **1 İtaliya** | 0,211 | 0,206 | 0,205 | 0,205 | 0,204 |
| **2 Misir** | 0,193 | 0,191 | 0,164 | 0,183 | 0,182 |
| **3 Kanada** | 0,188 | 0,179 | 0,176 | 0,177 | 0,177 |
| **4 Yaponiya** | 0,163 | 0,163 | 0,163 | 0,163 | 0,148 |
| **5 Rusiya** | 0,181 | 0,196 | 0,178 | 0,177 | 0,145 |
| **6 Latviya** | 0,111 | 0,118 | 0,105 | 0,137 | 0,137 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 7 Fransa | 0,144 | 0,142 | 0,138 | 0,130 | 0,137 |
| 8 İspaniya | 0,199 | 0,174 | 0,174 | 0,176 | 0,132 |
| 9 Çin | 0,213 | 0,208 | 0,207 | 0,209 | 0,131 |
| 10 Meksika | 0,138 | 0,137 | 0,135 | 0,131 | 0,129 |
| 11 Türkiyə | 0,180 | 0,143 | 0,142 | 0,142 | 0,127 |
| 12 Almaniya | 0,091 | 0,101 | 0,093 | 0,112 | 0,112 |
| 13 Litva | 0,083 | 0,128 | 0,126 | 0,104 | 0,099 |
| 14 Yunanıstan | 0,095 | 0,098 | 0,098 | 0,094 | 0,098 |
| 15 Azərbaycan | 0,121 | 0,161 | 0,157 | 0,190 | 0,091 |
| 16 Avstraliya | 0,081 | 0,081 | 0,081 | 0,089 | 0,088 |
| 17 Qazaxıstan | 0,124 | 0,121 | 0,059 | 0,096 | 0,081 |
| 18 Böyük Britaniya | 0,084 | 0,080 | 0,065 | 0,065 | 0,065 |
| 19 ABŞ | 0,063 | 0,065 | 0,064 | 0,064 | 0,064 |
| 20 Gürcüstan | 0,058 | 0,044 | 0,043 | 0,052 | 0,052 |
| 21 Sinqapur | 0,022 | 0,022 | 0,051 | 0,056 | 0,040 |

Mənbə: Müəllif tərəfindən hesablanmışdır

Hesablanan sub-indeksdə nisbi mərkəz 0,116-dır. Tədqiq edilmiş 21 ölkənin 10-u nisbi mərkəzdən sağda, 11-i isə nisbi mərkəzdən solda yerləşir. İEOÖ-lər (adambaşına hesablanan ÜDM-i 35 min dollardan az olan) şkala üzərində nisbi mərkəzə nəzərən təxminən bərabər paylanmışdır. İEÖ-də isə çoxluq (11 ölkədən 6-ı) sol tərəfə meyilli olsa da, yalnız Böyük Britaniya, ABŞ, Sinqapur və Avstraliya sağ qütbdə yer almışdırlar.

**Qrafik 1.**

**Biznes mühiti sub-indeksi üzrə ümumi nəticələr (2018)**




Dövlət maliyyəsi göstəricisinin 2018-ci ilə görə mehmanxana fəaliyyətinə ən az təsir göstərən ölkə Sinqapur (0,040), ən çox təsir göstərən ölkə isə İtaliyadır (0,204). Bu göstərici üzrə ən az təsir göstərən ölkələrin ilk beşliyinə Gürcüstan (0,052), ABŞ (0,064), Böyük Britaniya (0.065) və Qazaxıstan (0.081) tamamlayır. Misir (0,182), Kanada (0,177), Yaponiya (0,148) və Rusiya (0,145) turizm və mehmanxana sektoruna mehmanxanaların işə başlamaq üçün sərf etdikləri vaxt və xərc və mehmanxanaların tikinti icazələri üçün sərf etdikləri vaxt və xərc göstəricisinə görə ən çox tənzimləmə edən ölkələrin ilk beşliyini tamamlayırlar. Azərbaycan 0,091 ilə sub-indeksdə aldığı qiymətlə Fransa (0,137), İspaniya (0,132), Çin (0,131), Almaniya (0,112) kimi adambaşına hesablanan ÜDM-i 35 min dollardan daha çox olan, həmçinin Latviya (0.137), Türkiyə (0,127) və

Litva (0,099) kimi nisbi mərkəzi keçməmiş ölkələrə nisbətən soldan-sağa sıralamada ikinci onluqda (15-ci yerdə) yerləşir

**Nəticə**

Biznes mühiti sub-indeksinin sahibkarlar üçün əsas mahiyyəti ölkənin investisya mühitinin nə qədər onlar üçün elverişli olduğunu göstərir. İşə başlamaq vaxtına görə 3,5 günlə Azərbaycan 2018-ci ildə 5-ci yerdə qərarlaşmışdır. Bu çox yaxşı göstəricidir. Bu göstəricini daha da yaxşılaşdırmaq qanuni boşluqlara gətirib çıxaracaqdır. Təklif olunur ki bu göstərici dəyişdirilməsin. Lakin işə başlamaq xərci göstəricisinə görə isə təklif tam fərqlidir. Böyük Britaniya. Yunanıstan və Latviya təcrübəsinə əsaslanaraq demək olar ki, xərcləri ləğv etmək mehmanxnaların sayının artımına gətirib çıxarır. Bu səbəbdən xərcləri ləğv edərək bu göstərici üzrə liberal hala gəlmək daha yaxşı haldır. Tikinti icazələrinə sərf etdiklən vaxt və xərc göstəricisinə görə Azərbaycan İEOÖ-lərə nisbətdə dirijist, İEO-lərə nisbətdə liberal mövqe tutur. Bu da Azərbaycanın həm tikinti keyfiyyəti baxımından, həm də biznes mühitinin əlverişliyi baxımından əlverişli mövqedir. Nəticə etibarı ilə Azərbaycanın öz yerini qoruması məqsədə uyğundur.

## Ədəbiyyat

1. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimlənməsi, İqtisad Universiteti, Bakı, 2011.
2. N.Müzəffərli. İqtisadiyyatın sosialyönlüyü sağçı və solçu sistemlərdə. Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2014. S. 20-35
3. Rollett, H. (2003). Knowledge Management: Processes and Technologies. Springer Science Business Media, New York, 2003, 231 p.
4. Schultz, T. (1971). Investment in Human Capital: the Role of Education and of Research. – American Journal of Agricultural Economics, 53(4), 1971
5. World Bank, Doing Businees Report , Washington, 2015. P. 52-166
6. World Bank, Doing Businees Report , Washington, 2016. P.169-182
7. World Bank, Doing Businees Report , Washington, 2017. P. 170-187.
8. World Bank, Doing Businees Report , Washington, 2018. P. 126-141.
9. World Bank, Doing Businees Report , Washington, 2019. P. 133-151.
10. World Economic Forum, The Travel and Tourism Compotitivness Index Report, Ceneve, 2019.

***Fakhraddin Bayram Babazade***

*There is no clear definition of the investment and business environment. The World Bank has developed some indicators to measure the investment and business environment in terms of productive investment in companies, job creation and expansion. This tool is presented by the World Bank as the most effective system for foreign and domestic companies operating in any country in terms of investment and business environment that allows them to establish a business and make a profit. The investment climate can be measured by three broad variables: tax, monetary and trade policies that determine the macroeconomic situation; existence of institutions and quality of governance; measuring the level of infrastructure development. The investment and business climate is not just about corporate tax rates and tax incentives. Other important factors that significantly influence this are macroeconomic conditions, political stability, trust in government, the rule of law and the regulatory framework. When governments invite foreign direct investment, they often ignore the importance of the business environment. They focus more on market size, natural resource availability, and expected costs. While all of these factors are important, the investment climate is a necessary factor and should never be underestimated.*

***Keywords**: hotel, business environment, sub-index, construction, starting a business .*

***Фахраддин Байрам оглы Бабазаде***

*Нет четкого определения инвестиционной и бизнес-среды. Всемирный банк разработал некоторые показатели для определения инвестиционной и деловой среды с точки зрения производительных инвестиций в компании, открытия рабочих мест и расширения. Этот инструмент представлен Всемирным банком как наиболее эффективная система для иностранных и отечественных компаний, работающих в любой стране, с точки зрения инвестиций и бизнес-среды, которая позволяет им наладить бизнес и получать прибыль. Инвестиционный климат можно измерить тремя широкими переменными: налоговая, денежно-кредитная и торговая политика, определяющие макроэкономическую ситуацию; наличие институтов и качество управления; измерение уровня развития инфраструктуры. Инвестиционный и деловой климат - это не только ставки корпоративного налога и налоговые льготы. Другими важными факторами, которые существенно влияют на это, являются макроэкономические условия, политическая стабильность, доверие к правительству, верховенство закона и нормативно-правовая база. Когда правительства приглашают прямые иностранные инвестиции, они часто игнорируют важность деловой среды. Они больше ориентируются на размер рынка, наличие природных ресурсов и ожидаемые затраты. Хотя все эти факторы важны, инвестиционный климат является необходимым фактором, и его никогда нельзя недооценивать.*

***Ключевые слова:*** *гостиница, бизнес-среда, субиндекс, строительство, создание предприятий.*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 15.08.2022.***
***Çapa qəbul olunub: 22.08.2022.***